# Qazaxıstanın Qütb ulduzu - Abay

**(başlanğıcı ötən sayımızda)**

***Beynəlxalq Türk Akademiyası iki qardaş xalq arasındakı ədəbi əlaqələrin əhəmiyyətini yüksək qiymətləndirir, belə hesab edir ki, bu bağlarımızı öz işlərimizin mühüm sahələrində hər zaman inkişaf etdirməliyik.***

***Ötən 2019-cü ili Beynəlxalq Türk Akademiyası Azərbaycanın klassik şairi İmadəddinNəsiminin 650 illik yubileyi ili elan etdi və böyük humanist şairin şeirlərindən ibarət seçilmiş əsərləri qazax dilinə tərcümə olundu. Hazırda Türk Akademiyası tərəfindən "Ümumi Türk ədəbiyyatı" dərsliyinin hazırlanması son mərhələdədir. Dərslikdə bizi bu gün də birləşdirən türk dünyasının məşhur şair və yazıçılarına xüsusi yer verilib.***

***Ümid edirik ki, Azərbaycan dilində işıq üzü görən "Qara söz" nəsihət kitabı iki qardaş xalqın bir-birini tanımasında və ümumi ide yalarımızın həyata keçirilməsində mühüm ad- dım olacaq.***

***Yolumuz açıq olsun!!!***

***Darxan Xıdırəli tarix elmləri doktoru, professor,***
***Beynəlxalq Türk Akademiyasının prezidenti***

## Tərcümədən

Bu il Qazaxıstanda böyük mütəfəkkir və filosof ABAYın (İbrahim Kunanbayev) 175 illik yubiley tədbirləri keçiriləcək. ABAYın yaradıcılığında "Qara söz"ün özəl yeri var. Bu başlıq altında ABAYın 45 nəsihəti toplanıb. ABAY ömrünün müdrik çağlarında bu nəsihətləri xalqı üçün yazıb, yadigar qoyub. Bu kiçik nəsihətnamələrdə böyük fəlsəfə var. Həmin fikirlər bir xalqın taleyini, ömrünü, xarakterini, məişətini elə gözəl və zərrin çalarlarla açır ki, oxuduqca, insan dünyanın faniliyinin, yalnız sözün və əməlin əbədiliyinin şahidi olur. "Qara söz" – qazax xalqının həmayili və göz muncuğudur.

ABAYın "Qara söz"ü onun öz həyatının müxtəlif epizodları haqqında olsa da, bütün türk dünyasına, insanlığa ünvanlanmış ismarışdır. Bu sözləri oxuyub hikmətinə varanlar bir daha əmin olacaq ki, dünyada TANRIdan və Tanrı lütfü SÖZdən böyük heç nə yoxdur.

ABAY həm dövrə, həm dövrana, həm hakimlərə etiraz edir, həm də cahilləri, yolunu azanları sevir.

ABAY xalqının dərdinə dərman axtarır.

*Aida EYVAZLI GÖYTÜRK, Beynəlxalq Türk Akademiyasının İsmayıl Qasprahı adına "Dildə, fikirdə, əməldə birlik" mükafatının laureatı, jurnalist-publisist*



**Rus taicrləri bu yerlərə ayaq açmazdan öncə, sərtlər qazaxların diriləri üçün öz əlləri ilə tikdikləri paltarları gətirib satdı, ölülərinin axirə- ti üçün kəfən daşıdı. Bizi əyin-başlı etdilər. Ata-balanın bir-biri ilə bölə bilmədiyi malı sərtlər alıb, pulunu ata və bala arasında böldü. Rusları görəndən sonra da rusların bildiklərini, bizdən çox onlar öyrəndi. Ləyaqətli bəylər də, savadlı mollalar da, yaxşı sənətkarlar da, səxavət də, nəzakət və ədəb də sərtlərdədir.**

## Birinci söz

Ömrümü yaxşı yaşadım, ya pis yaşadım, bunu deyə bilməsəm də, onu bilirəm ki, bu yolda çox keşməkeşlərdən keçdim: mübarizə və savaş, məhkəmə və mübahisə, əzab və həyəcanlar içərisində ahıl yaşıma çatdım, gücdən düşdüm, hər şeydən doydum, etibarsızlıq gördüm... Lakin etdiklərimin bəhrəsini görmədim, həyatın heç olduğunun fərqinə vardım. İndi nə ilə məşğul olum, qalan həyatımı necə yaşayım? – Öz suallarıma cavab tapmamağım məni təəccübləndirir. Xalqı idarə edimmi? Yox, xalq idarə olunan deyil. Qoy bu yükü üzərinə sağalmaz xəstəlik götürmək istəyən çəksin, yaxud da ürəyi gənclik eşqi ilə dolu çılğın bir gənc götürsün. Tanrı məni belə yükdən hifz etsin.

Yoxsa, mal-qaramı artırım? Yox, bu da bir iş deyil. Qoy mal-qara ilə uşaqlar məşğul olsun, bu indi onlara lazımdır. Özümün qalan ömrümü malqara saxlayıb oğruları və dilənçiləri,yoldan keçənləri sevindirməklə başa vurmaq istəmirəm.

***Bəlkə elmlə məşğul olum? Bəs yanımda elmi mübahisə etmək üçün bir kimsə olmadığı halda, elmin dərinliyinə necə gedim? Yığdığım biliklərimi kimə ötürüm, bilmədiklərimi kimdən soruşum? Lap tutaq ki əlimə bir kəfən alıb, durub çöllərə düşsəm, adamsız çöllərdə otursam belə, faydası yoxdur. İnsanın yanında onu anlayan, dərdini-sevincini bölüşməyə həmdərdi olmayanda öyrəndiyi biliklər də dərdə çevrilir, insanı vaxtsız qocaldır.***

Bəlkə özümü Tanrıya - ibadətə həsr edim? Qorxuram, bu da alınmaya... İbadət üçün başdan ayağa əminlik və sakitlik lazımdır. Nə qəlbimdə, nə həyatımda dinclik yoxdur, belə adamların arasında, bu ölkədə zahidlik etmək mümkün deyil!

Bəlkə uşaqları tərbiyələndirim? Yox, buna da gücüm çatmır. Tərbiyələndirərdim, lakin görürəm ki, onları heç nə ilə öyrətmək mümkün deyil. Onlara hansı işi öyrədim, hansı məqsədlə oxudum, hansı xalq üçün edim? Necə məcbur edim, hara yönəldim, əgər özüm bildiklərimi tətbiq etməyə yer tapmıramsa, bu uşaqlar məndən nə öyrənəcək? Mən burada da özümlə barışa bilmirəm.

Axır ki, bir qərara gəldim: öz fikirlərimi yazmaqla, ancaq kağız və mürəkkəbə sığına bilərəm. Əgər həmin fikirlərdə kimsə mənə tap- sa, qoy köçürsün və yadda saxlasın. İnsanlara gərək olmayanda isə, sözüm yenə özümə qala- caq. İndi mənim başqa qayğım yoxdur...

**1890**

## İkinci söz

Uşaqlığımda özümdən böyüklərin özbək- lərə şəbədə qoşduğunu görürdüm. Onlar özbəkləri lağa qoyaraq deyirdilər: "Ehvay! Sərtlər, geniş çəmənlərini, oylaqlarını qoyub, damlarının üstünü örtmək üçün qamışı bizdən aparırlar, kol dibindən qəfil çıxandan qorxurlar, bir-birinini arxasınca qeybət edib, üz-üzə gələndə gülürlər, paxıllıqdan ürəkləri partlayır, "sərt-sürt belə olurmuş" – deyib səs-səsə verərək gülüşürdülər. Noqayları görəndə də onlara lağ edir və belə söyürdülər: "Noqay dəvədən qorxur, yorğa atla gedə bilmir, piya- da gedəndə istirahət edir. Qaçan noqay, əsgər noqay, tacir noqay... Siz gərək noqay yox, nokay olaydınız".

***Sarıbaş rusları görəndə: "Kənd görəndə ça- şan urus, yaman çaşır sarıbaş urus", –deyirdilər. Deyirdilər ki, urus kənd görən kimi atını kəndə çapır, başındakı papağına iydən yaxın düşmək olmur, hər havaya oynayır, nə desən inanır. Elə bil uzunqulaqdır, söz aparıb, söz gətirir".***

***Özlüyümdə: "Tanrım! Dünyada qazaxdan böyük və ləyaqətli xalq yoxdur!" – deyə qürurlanardım. Bu söhbətlər məni sevindirər və şənləndirərdi. İndi isə baxıb görürəm ki, sərt deyilən o yerlərdə elə bir bitki yoxdur ki, bitməsin, elə bir ölkə yoxdur ki, sərt tacir oraya getməmiş olsun, elə bir əşya yoxdur ki, onu sərt öz əlləri ilə düzəldə bilməsin. Sərtin əllərindən hər cür sənətkarlıq gəlir. Miyanə yaşayıb, şükr edər, kimsə ilə dalaşmaz, dava axtarmazlar.***

Rus taicrləri bu yerlərə ayaq açmazdan öncə, sərtlər qazaxların diriləri üçün öz əlləri ilə tikdikləri paltarları gətirib satdı, ölülərinin axirə- ti üçün kəfən daşıdı. Bizi əyin-başlı etdilər. Ata-balanın bir-biri ilə bölə bilmədiyi malı sərtlər alıb, pulunu ata və bala arasında böldü.

Rusları görəndən sonra da rusların bildiklərini, bizdən çox onlar öyrəndi. Ləyaqətli bəylər də, savadlı mollalar da, yaxşı sənətkarlar da, səxavət də, nəzakət və ədəb də sərtlərdədir.

Noqaylara baxanda görürəm, onlar əsgərliyə də yarayır, kasıblığa da dözür, ölümü də şahanə qarşılayır, məktəbləri qoruyur, dinə hörmət edir, zəhmət çəkməyi də, var-dövlət toplamağı, bəzənib geyinməyi də, sevinməyi də bacarırlar.

İndi biz qazaxlar onların qapısında muzdurluq edir, bəylərinin verdiyi qəpik-quruşa əl açırıq. Bizim varlıları onlar öz evindən qovur, deyirlər ki: "Ey qazax, döşəmə ona görə deyil ki, sən öz çirkli çəkmələrinlə bulayasan!"

Onların gücləri dayanmadan sənətkarlıq və peşə öyrənmələrindədir, bizdən fərqli olaraq onlar əbəs yerə, boş və ucuz şeylərə görə bir-biri ilə mübahisə edib, vaxt itirmir.

***Rusların ziyalı və zadəganları isə bir başqadır. Biz onlardan siyasət, bilik öyrənmədik. İndi belə şeyləri görəndə fikirləşirəm ki, biz heç on- ların qulluqçusu da ola bilmərik. Bizim o dəyərli, gözəl söz-söhbətlərimiz necə oldu?! Şaqraq gülüşlərimiz haraya qeyb oldu?!"***

**1890**

## Üçüncü söz

Görəsən, qazaxların içərisindəki pərakəndə- lik, bir-birini gözügötürməzlik, bir-birinə qarşı bədxahlıq və qərəzçilik haradan qaynaqlanır? Niyə onlar səmimi danışmırlar? – Tənbəllik azarı canlarından çıxmasa da, iş görənlərin gördüyü işi də bəyənməz, ancaq ağalıq etməyi, əmr etməyi sevərlər, nə üçün? Müdriklər doğru deyib: tənbəl insan qorxaq və iradəsiz olar, iradəsizlər – qorxaq və təkəbbürlü; təkəbbürlülər – axmaq və cahil. Hər bir nadan arsız olar; əbləh və yaltaq adamın şərəfdən xəbəri olmaz, şərəfsiz adamsa dostluğa etibarsız çıxar.

***Bəzi tamahkar insanlar fikirləşirdi ki, mal-qaranı çoxaldım, mal-qara yiyəsi olunca da el-obanın sayğısını qazanım. Lakin fikirləşmirlər ki, torpağa könül versə idilər, ticarətlə məşğul olub, elmlərini artırmağa, sənətkarlığa üstünlük versə idilər, indi biz bu qədər miskin olmayacaqdıq. Hər bir mal saxlayan adam deyir: "Malqaram çox olsun". Sonra da balaları üçün gün ağlamağa başlayır. Deyir: "Balaları- mın da mal-dövləti artsın". Mal-dövləti artıran- dan sonra ona baxmağa çətinləşir. Fikirləşir ki, bu qədər mal-qaranı tək idarə edə bilməyəcək, mal-qaraya, ilxıya baxmağa çoban axtarır, özü də qımızdan içir, ətdən yeyib doyur, doyandan sonra gözləri gözəl xatın gəzir, ən gözəl atları minib çapır. Qışa yaxın baxıb görür ki, mal-qa- ranı saxlamağa yeri yoxdur, qonşunun otlağına, tövləsinə, həyətinə göz dikir. Kənddə qazandı- ğı ad-sanına, nüfuzuna, gücünə, sayğısına görə kimsə ona etiraz edib, söz deyə bilmir.***

**(davamı gələn sayımızda)**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**